Səh. 2 Əlininaltıklaviaturalı azərbaycanlı ziyalılar haqqında bir neçə söz – Azər Musaoğlu
Səh. 5 Sayılı günlərin həyəcanı – Aytən Fətullayeva
Səh. 5 Diplomlu savadsızlar – Validə Fətullayeva
Səh. 6 "Koroğlu"nun əxlaqi-estetik əqidəsi – Elizbar Cavelidze
Səh. 3 Nənəmə göz dəyməsin! – Esmira Ələkbərli
Səh. 4 UŞAQ BAĞÇALARINDA DƏYİŞİKLİKLƏRİN YENİ MƏRHƏLƏSİ BAŞLAYIR
Səh. 7 Niderland – pərdə arxasındakı gerçəklər – Afiq Muxtaroğlu

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 APREL
2023-CÜ İL
№ 007 (178)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## ATƏT SƏDRİ GÜRCÜSTAN RƏSMİLƏRİ İLƏ BİR SIRA GÖRÜŞLƏR KEÇİRİB



Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) fəaliyyətdə olan sədri, Şimali Makedoniyanın xarici işlər naziri Buyar Osmani aprelin 10-da Tbilisidə Gürcüstanın xarici işlər naziri İlia Darçiaşvili ilə görüşüb. Tərəflər Qara dəniz regionundakı təhlükəsizlik məsələsini müzakirə ediblər.

Buyar Osmani İlia Darçiaşvili ilə mətbuata birgə açıqlamasında səfərinin məqsədinin Gürcüstanla əməkdaşlığı gücləndirmək və hazırkı mürəkkəb dövrdə sülh və sabitliyi dəstəkləmək olduğunu bildirib.

"Gürcüstan ATƏT-in dəyərli üzvüdür. Biz real və hərtərəfli təhlükəsizlik üçün birlikdə işləməyə davam edəcəyik", - deyə B.Osmani vurğulayıb.

ATƏT sədri səfəri çərçivəsində Gürcüstan Baş naziri İrakli Qaribaşvili ilə də görüşüb. Baş nazirin mətbuat xidmətinin yaydığı məlumata görə, görüş zamanı ATƏT-lə beynəlxalq əməkdaşlıq məsələləri və Gürcüstanın Avropaya inteqrasiya yolunda əldə etdiyi tərəqqi müzakirə edilib.

Tərəflər iki ölkə arasında əməkdaşlığın dərinləşdirilməsinə hazır olduqlarını ifadə ediblər.

Görüş zamanı Şimali Makedoniya xarici işlər nazirinin ATƏT-ə sədrliyi dövründə Gürcüstana səfər etməsinin əhəmiyyəti vurğulanıb.

Söhbət zamanı Gürcüstanın işğal altındakı ərazilərindəki vəziyyətə də toxunulub.

İrakli Qaribaşvili Buyar Osmaniyə Gürcüstanın ərazi bütövlüyü və suverenliyinə verdiyi dəstəyə görə təşəkkürünü bildirib.

Gürcüstan Prezident Administrasiyasının məlumatına əsasən, Buyar Osmani Prezident Salome Zurabişvili ilə də görüşüb. S.Zurabişvili ATƏT-in fəaliyyətdə olan sədrinə Gürcüstanın işğal olunmuş ərazilərində insan haqları və humanitar vəziyyət barədə məlumat verib. Dövlət başçısı səmərəli əməkdaşlığa, demokratiyanın möhkəmləndirilməsi, mühüm islahatların həyata keçirilməsi baxımından ATƏT-in verdiyi dəstəyə görə təşəkkürünü bildirib.

B.Osmani ATƏT-in Gürcüstanda institusional islahatlara dəstəyini daha da gücləndirməyə hazır olduğunu qeyd edib.

## 9 APREL FACİƏSİNDƏN 34 İL ÖTÜR

Sovet ordusunun törətdiyi 9 Aprel faciəsindən 34 il ötür. Hər il aprelin 9-u Gürcüstanın dövlət və hökumət rəsmiləri, gürcü xalqı, eləcə də bu ölkədə yaşayan azərbaycanlılar Gürcüstan parlamentinin binası önündə 9 Aprel qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət edirlər.

Qeyd edək ki, 1989-cu il aprelin 9-da sovet ordusu Tbilisidə Gürcüstanın müstəqilliyi uğrunda başlamış dinc nümayişi tanklardan və zəhərləyici qazlardan istifadə etməklə qəddarlıqla dağıdıb.

1989-cu il 9 Aprel faciəsi zamanı 21 nəfər ölüb, yüzlərlə insan yaralanıb, 3500 nəfər kimyəvi qazdan zəhərlənib.

Gürcüstanda 9 Aprel tarixi Milli Birlik Günü, həmçinin müstəqillik uğrunda həlak



olanların xatirə günü kimi qeyd edilir.

Faciə qurbanlarının xatirəsi ənənəvi olaraq paytaxtın Şota Rustaveli prospektində, Gürcüstan parlamentinin binası qarşısındakı memorial önündə, həmçinin bölgələrdə 9 Aprel qurbanlarının xatirəsinə ucaldılmış abidələr önündə anılır.

## İRAKLİ QARİBAŞVİLİ QƏBƏLƏDƏ İLHAM ƏLİYEVLƏ GÖRÜŞÜB

Aprelin 7-də Azərbaycanın Qəbələ şəhərində Azərbaycan Prezidenti İlham Əliyevlə Azərbaycanda işgüzar səfərdə olan Gürcüstan Baş naziri İrakli Qaribaşvilinin təkbətək görüşü keçirilib.

Görüş zamanı Prezident İlham Əliyev və Baş nazir İrakli Qaribaşvili Azərbaycan ilə Gürcüstan arasında humanitar, mədəniyyət, təhsil, müdafiə sənayesi, hərbi, təhlükəsizlik, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlıq məsələlərini müzakirə ediblər.

Söhbət zamanı Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində



strateji tərəfdaşlıq haqqında Sazişin əhəmiyyəti, həmçinin Qara dənizin dibi ilə kabelin çəkilməsinin, bu xüsusda Azərbaycanın və Gürcüstanın digər tərəfdaşlarla işbirliyinin önəmi də qeyd edilib.

## GİVİ MİKANADZE TƏHSİL KOMİTƏSİNİN YENİ SƏDRİ SEÇİLİB

Parlament yeni təhsil komitəsinin sədri olaraq Givi Mikanadzenin namizədliyini dəstəkləyib. Plenar iclasda təhsil və elm komitəsinin sədri vəzifəsinə Givi Mikanadze 85 səslə seçilib.

Xatırladaq ki, Baş nazir İrakli Qaribaşvili təhsil komitəsinin keçmiş sədri Giorgi Amilaxvarini təhsil naziri vəzifəsinə təqdim etdikdən sonra martın 4-nə kimi komitə sədri səlahiyyətlərini Mariam Laşxi icra edib.

Təhsil və elm komitəsinin yeni sədrinin



hüquqi təhsili və pedaqoji təcrübəsi var. O, Xalq Müdafiəçisi Aparatında, həmçinin İnsan Hüquqları Təhsil Mərkəzində çalışıb.



# ƏLİNİNALTIKLAVİATURALI AZƏRBAYCANLI ZİYALILAR HAQQINDA BİR NEÇƏ SÖZ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Yazıya başlamamışdan qabaq bilməyənlər üçün qeyd etmək istəyirəm ki, qəzetimiz yanvar ayından çap olunmur, yalnız PDF olaraq qəzetin saytında – yeniyol.ge-də yayımlanır. Səbəbi mən deməsəm də özünüz başa düşdünüz yəqin ki – yenə maliyyə yoxluğu...

Bu haqda yazıb dilənçilik etmək fikrində deyiləm; sadəcə olaraq, qəzeti əldə edə bilməyən, qəzetin çap olunub-olunmaması ilə bağlı maraqlanan, narahat olan dəyərli oxucularımızın zənglərinə və mesajlarına yazı ilə də cavab vermək istəyirəm ki, xəbəri olmayanlar da xəbər tutsunlar və narahat olan bütün oxuculara könüldən minnətdarlığımı bildirir, təşəkkür edirəm!

Onsuz da bizlərdə qəzetə, jurnala, kitaba, məktəbə, teatra maliyyə yardımı göstərənlərin, mesenatlıq edənlərin sayı iki əlin barmaqlarının sayından çox deyil, onlar da ki, tarixin səhifələrində qaldılar. Allah rəhmət eləsin! Bizim imkanlılar qəzetə, jurnala, kitaba, məktəbə, teatra pul xərcləməkdənsə, yatırım etməkdənsə, yardım göstərməkdənsə qırx gün, qırx gecə sünnət toyu etməyi; qumarxanalarda bir məktəbin inşasının pulunu uduzmağı; özü kimi "toxları" bahalı restoranlarda yedirdib-içirtməyi; məclisində savadsız müğənnilərin fanaqramla ağızlarını açıb-yumaraq iki-üç şit, bambılı, mənasız "mahnı oxumalarına" qalaq-qalaq pul verməyi; yol çəkdirmək əvəzinə puldan basıb yolu mənimsəyib cığıra çevirməyi; bir tələbənin dördillik təhsil haqqının qiymətində maşın sürməyi; bir qəzetin illik çap xərcləri qiymətində saat taxmağı və bu kimi digər işlərlə məşğul olmağı daha düzgün, daha insanpərvər, daha vətənpərvər, daha millətpərvər, daha tərəqqipərvər hesab edirlər...

Ağzını açıb qəzet demək istəyəcəksən, sözü ağzında qoyacaqlar ki, nə qəzet, qəzet nədir, indi qəzet oxuyan var, qəzet dövrü çoxdan qurtarıb. Dünyada milyonlarla tirajla çıxan qəzetləri misal çəkəcəksən, and-aman edəcəksən ki, texnologiyanın ən çox inkişaf etdiyi, yayıldığı ölkələrdə qəzet çap edən də var, qəzet oxuyan da. İndi internet əsridir deyib duracaq. İnandırmağa çalışacaqsan ki, internetdə yayımlanan yazılar qalıcı deyil, domenin, hostinqin pulunu verməsən, illərlə yazılanlar, yayımlananlar, çəkilən zəhmət bir günün içində yox olacaq; amma qəzet arxivdir, kağızdır, qorunub saxlanılması üçün xərc də çəkmək lazım deyil. Deyəcək ki, bizdə kağız qəzeti qatıq bankasının ağzını bağlamaq üçün, tum doldurub satmaq üçün, pomidor yeşiklərinin altına-üstünə düzmək üçün istifadə edirlər. Oxucuların zənglərini, mesajlarını göstərəcəksən ki, budur qəzet oxumaq istəyənlər. Cavab verəcək ki, qəzet oxumaq istəyən pul verib qəzet alar. Sən də miskin-miskin susacaqsan...

Bizdə qəzetə pul verib almaq istəyənlərin sayı da iki əlin barmaqlarının sayı qədər ola, olmaya. Ümumiyyətlə, bizdə pul verib jurnal alanların, pul verib kitab alanların, pul verib teatra bilet alanların sayı "Qırmızı Kitaba" düşəcək qədərdir. Hər şeyi pulsuz istəyirik. Bizdə heç pul alıb qəzetə yazı yazanların sayı da çox deyil. Düzdür, verdiyimiz qonorar elə böyük məbləğ olmasa da, necə deyərlər: kasıbın olanından...

Baxırsan, sinəsi sözlə doludur, yazmaq istəyir. Yalvar-yaxarla bir yazı yazdırırsan ki, səsi lazımlı yerlərə çatsın, naz edir. Və ya azərbaycanlılara aid olan məsələləri gürcü dilində, ingilis dilində yazıb sosial şəbəkədə paylaşır, azərbaycanlılara gürcü dilində, ingilis dilində müraciət edir, yol göstərir, ağıl verir, dərd anladır, məsləhət görür və sair...

Bu yerdə adamın yadına daşıbəlalı Nəriman Nərimanovun "Əliqələmli müsəlman ziyalıları haqqında bir neçə söz" yazısı düşür. Doktorun sözlərini bir az dekanstruksiya edib, üzünü internetə əli çatmayan, gürcü və ingilis dillərini bilməyən azərbaycanlılara xitab edən bu əlininaltıklaviaturalı azərbaycanlı ziyalılara tutub sual ünvanlamaq istəyirsən: Statuslar kimin üçün və nə məqsədlə yazılır? Əgər iyirmi-otuz nəfər oxumuş, feysbuk işlədən azərbaycanlılardan ötrü yazılırsa, biz bu yazan cənabları inandıra bilərik ki, oxumuş, feysbuk işlədən azərbaycanlılar müzakirə edilən bu məsələləri həmin status paylaşanlar qədər yaxşı anlayırlar. Əgər möhtərəm status paylaşanlar həmən insanları nəzərdə tuturlar ki, bu statusların onlar üçün doğrudan da əhəmiyyəti vardır, onda biz cəsarət edib bu zəhmətin tamamilə faydasız olduğunu təsdiq edə bilərik: ona görə ki, həmin statusları buna ehtiyacı olan adamlar oxumurlar, buna ehtiyacı olmayanlar oxuyurlar...

Və Nərimanov yazısında bu kimi məqalələri (burada: statusları) oxuması üçün cəmiyyəti əvvəlcə hazırlamaq lazım olduğunu bildirir və bunun üçün Azərbaycan dilində heç olmasa bircə qəzetin nəşr olunmasının əhəmiyyətindən yazır.

Bizim bu əlininaltıklaviaturalı azərbaycanlı ziyalılar isə niyəsə qəzetə öz dillərində yazı yazmağı özlərinə sığışdırmırlar, başa düşmək istəmirlər ki, dərdinə dərman düzəltməyi öyrətmək istədikləri dərdlilərə qəzet vasitəsiylə ana dilində müraciət feysbukda gürcü, ingilis dilində müraciətdən daha əlçatandır, daha faydalıdır.

Texnologiya, sosial media, kriptovalyuta dövründə yaşasaq da, hələ də əli internetə, kompüterə, smartfona, feysbuka, sayta çatmayanlar var, hansılar ki, qəzetin hər sayını səbirsizliklə gözləyirdilər... Təəssüf ki, "gözləyirdilər"i keçmiş zamanda yazası oluram... Və qəzetin paylanılmamasını görüb narahat olan da, maraqlanan da, qəzetin çapının dayandırılmasına üzülən də onlar oldu, çünki qəzeti oxuyurdular, feysbukda status yazan əlininaltıklaviaturalı azərbaycanlı ziyalılar yox... Allah meqabaytınızı artıq eləsin!

# ABŞ GÜRCÜSTANIN YÜKSƏK VƏZİFƏLİ 4 HAKİMİNƏ SANKSİYA TƏTBİQ EDİB – PREZİDENT NARAHATLIĞINI, BAŞ NAZİR HAKİMLƏRƏ DƏSTƏYİNİ BİLDİRİB

Gürcüstan Prezidenti Salome Zurabişvili ABŞ-ın dörd gürcü hakimə qarşı sanksiyalarının ölkənin Avropa İttifaqına namizəd statusu almasına mane ola biləcəyindən narahatlığını bildirib. Bu barədə o, ABŞ səfiri Kelli Deqnan ilə görüşdən sonra keçirilən brifinqdə bildirib.



*"Təəssüf edirəm ki, bu qərarla Gürcüstan sanksiyaya məruz qalan digər ölkələrin siyahısına daxil edilib. Bu, Gürcüstanın avropalı tərəfdaşlarından ən vacib qərarı – Aİ üzvlüyünə namizəd statusunun verilməsini gözlədiyi anda baş verib. ABŞ-ın qərarının Avropada mənfi siqnal kimi qəbul ediləcəyindən ehtiyat edirəm"*, - S.Zurabişvili deyib.



Gürcüstan Prezidenti vurğulayıb ki, məhkəmə sistemində mümkün korrupsiya faktlarının araşdırılması və ya Ali Ədliyyə Şurasının tərkibinə yenidən baxılması kimi əməli addımların atılması lazımdır. S.Zurabişvilinin sözlərinə görə, ABŞ-ın sanksiya qərarı cəmi 4 nəfərə aid olsa da, ölkənin nüfuzuna xələl gətirir. *"Ölkəyə etimadı bərpa etmək üçün islahatlar yolu ilə məhkəmə sistemini təkmilləşdirmək lazımdır"*, - deyə o bildirib.

Xatırladaq ki, aprelin 5-də ABŞ Dövlət Departamenti Gürcüstanın dörd yüksək vəzifəli hakiminə sanksiya tətbiq edib. Bu barədə ABŞ-ın Gürcüstandakı səfirliyi məlumat yayıb.

Məlumatda bildirilib ki, departament hakimlər – Mixeil Çinçaladze, Levan Murusidze, İrakli Şengelia və Valerian Tsertsvadzeyə korrupsiya fəaliyyətlərində iştirak etdiklərinə görə sanksiya tətbiq edib.

Qərara əsasən sözügedən hakimlərin və onların birinci dərəcəli ailə üzvlərinin ABŞ-a girişi qadağan edilib.

Açıqlamada bildirilib ki, adıçəkilən şəxslər məhkəmə sədrləri və Gürcüstanın Ali Ədliyyə Şurasının üzvləridirlər və onlar vəzifələrindən sui-istifadə edərək qanunun aliliyinə, Gürcüstanda ictimaiyyətin məhkəmə sisteminə olan inamına xələl gətiriblər.

*"ABŞ demokratiyanın dəstəklənməsi və qanunun aliliyi ilə bağlı gürcülərin yanındadır və cavabdehliyin təşviqi üçün ictimai vəzifəsindən şəxsi mənfətləri naminə sui-istifadə edənlərin ifşasına davam edəcək. Biz tərəfsiz və müstəqil fəaliyyət göstərən bütün dürüst və cəsarətli hakimlərin yanındayıq"*, - deyə bəyanatda bildirilib.

Gürcüstan Xarici İşlər Nazirliyi bu qərara cavab olaraq ABŞ tərəfinin korrupsiya ilə bağlı sübut təqdim etməyəcəyi təqdirdə tətbiq edilən sanksiyaların iki ölkənin dostluq münasibətlərinə xələl gətirəcəyini bəyan edib.

Gürcüstanın Apelyasiya Məhkəməsinin ömürlük hakimi L.Murusidze isə Dövlət Departamentinin qərarını Gürcüstan məhkəməsini və ədalətini ABŞ-a tabe etmək cəhdi adlandırıb.

Baş nazir İrakli Qaribaşvili məsələ ilə bağlı Ədliyyə Şurasının üzvləri ilə görüşüb və bütün hakimlərə dəstəyini bildirib.




*"Hökumət başçısı və hakim partiyanın nümayəndəsi kimi, mən bütün hakimləri tam dəstəkləyirəm. Hakimiyyətimiz dövründə məhkəmə müstəqil olub, ona nə daxildən, nə də başqa ölkələrdən müdaxilə edilə bilməyəcək hala gəlib. Təbii ki, hakimlərə hər hansı müdaxilə və ya onların hansısa təsirə məruz qalması qəbuledilməzdir"*, - İ.Qaribaşvili deyib.

# NƏNƏMƏ GÖZ DƏYMƏSİN!

Nənəmin Gülüstan loğman deyilən anası varmış. Hətta bu gün tibbin sağalmaz dediyi xroniki bir çox xəstəlikləri sağaldarmış. Nənəm hərdən ondan danışardı. Çox təəssüf edirəm ki, nənəmi az dinləmişəm. Nənəm ondan sitat gətirib nə isə danışanda, düşünürdüm, inkişaf edən bu günkü səhiyyədə ot-əncərin tətbiqi təsirsiz olar. Mən bunu düşünəndə gənc idim, xoşbəxt, heç bir qayğısı olmayan tələbə idim. Məzunluqdan sonra ailə qurdum. Həyat gedişi təbii şəkildə öz xəttini cızdı. Daha nənəmi də digərləri kimi arada xeyirdə-şərdə görürdüm və görəndə də özümüzdən danışmağa vaxtımız ancaq çatırdı, nəinki olanlardan, keçənlərdən danışmağa.

İndi yadıma gələn xatirələri öz məntiqimlə analiz edəndə, nənəmin etdikləri, məsləhətləri, əslində, bir yaşam tarixinin təcrübəsindən gələn, əsrlərdən süzülən, nənəmə anasından keçən xalq təbabəti idi. Mən yenə də təəssüf edirəm ki, elə bir adamın nəticəsi olmaq şansımdan maariflənərək istifadə edən yaşım olmayıb. Bu gün sosial şəbəkənin bütün evlərdə cövlan etdiyi bir zamanda internet məlumatları o qədər çoxdur ki, hamı hər şeyi bilir. Bu bilgilər içində əsassız, doğruluğa əsaslanmayan o qədər məlumatlar var ki...

Mən nənəmdən və yaxın nənələrdən eşitdiyim bir neçə çarəni elmi əsaslarla sizə çatdıracam. Nənəmin sanballı görkəmi vardı, həqiqətən keçmiş zamanlarda rayon deputatı olsa da, vaxtilə sovet sədri arvadı olsa da, bu gün oğullar anası, nəvələr nənəsi seçilənlər cərgəsində olması onu hansı məclisdə olsa diqqət mərkəzində saxlayırdı. Nənəmin hansı şəraitdə, necə mühitdə necə qarşılanmağını tam izləməsəm də, onu bilirdim ki, nənəm mərəkədən gələn kimi bir ovuc duzu götürüb öz aurası boyu fırladar (ya fırlatdırar), sonra ya ocağa atardı, ya suya. “Mana baxan baxtafar verən bəd gözləri yandırıram” deyəndə, təbii ki, buna şahid gəlinləri istehza edər, oğlanları yəqin qürurlanar (anam bizimlə öyünür deyə), nəvələri də cahillik kimi gülərdi.

Çox təəssüf ki, mən bu ənənənin elmi açmasını illər sonra tapacaqdım. Bir daha əmin olacaqdım ki, el qaydalarında, nənələr yaddaşında heç bir ənənə səbəbsiz deyilmiş. Əlbəttə, elm elmdir, sadəcə açıqlama hər bir izahatçı müəllifin öz təfəkkür nəticəsi olmalıdır. Paşa Yaqubun “elmi-lədün” açıqlamalarını oxuduqca bir daha əmin oldum.

Çox maraqlıdır ki,əvvəllər bütün maddələr üç halda möcuddur dedilər: qaz, maye, bərk. Son iki ilə qədər dedilər, yox, dördüncü hal da varmış: plazma. Bu ilin dərsliklərində isə fikirlərini dəyişib yenidən üç hal yazdılar. Paşa Yaqub araşdırıb və elmi əsaslara söykənərək açıqlayır ki, təbiətdə efir enerjisi adlanan bir element var. Hətta onu Mendeleyev öz cədvəlində hidrogendən önə – birinci xanaya yerləşdirmişdi. Bu element o qədər fərqliliyə malikdir ki, bu barədə başqa yazıda yazaram. İndi bu enerjidən danışaq.

Plazma adlanan maddə halı bilirsiniz nədir? – Gözlə görülməyən, tutulmayan, ölçülməyən, bir olan, yəni ocağın istiliyi, günün enerjisi və s. Biz kiməsə yaxınlaşanda ona öz enerjimizlə təsir edirik. Əlbəttə, ya müsbət, ya mənfi olaraq. Adamlar da var daim müsbət, ya mənfi enerji ötürürlər.

Nənəm deyərdi ki, elə ki, gördünüz qarşınıza filankəs çıxdı, qəti yoluna davam etmə; filankəslərin yanında edəcək işlərinizi danışmayın, ömründə baş tutmaz. Valideynlərimizin “geridə qalmış fikirlər” adlandırdığı bu nəsihətləri görməzdən gəlmələri biz nəvələrdə də bu fikirlərə biganəlik yaratmışdı. Sən demə, bu fikirlərin hikməti o qədər dərinmiş ki, hətta atalar da deyərmiş: Allahın nəzərdən xəbəri yoxdur! Sən demə nənəm özünü müalicə edirmiş Allahın öhd etmədiyi nəzərdən (məcazi belə deyilir, yəni o qədər güclüdür mənasında). Deməli, hər insanın ətrafında, necə ki, işığın ətrafında orbit kimi halğa dalğası olur, eləcə də insanın dalğası olur. Buna aura deyilir. O auranın tərkibində zəif rabitəli natrium ionu olur. Mənfi enerjidən –bəd baxışdan o rabitə qırılır və natrium ionu olaraq oradan ayrılır (natrium zəif, tezliklə digər reaksiyaya daxil olmaqla), auranı tərk edir. Aurada sanki rabitə qırılır. Bu zaman adam özünü pis hiss edir, əzginlikdən, halsızlıqdan xəstəhal olur. Əlbəttə, psixoloji dəyanət dərəcəsindən asılı olaraq fərdi reaksiya olur. Xeyli (bir neçə saatdan bir neçə günə qədər) davam edən bu hal get-gedə özünü bərpa edir və cərgəyə qarışır. Bərpa etməsə psixoloji fəsaddan ciddi xəstəliklərə qədər apara bilər. Bərpa üçün natrium ionu lazımdır. Nənələr korafəhim olaraq zamanın sınağıyla bu çarəni duzda tapdılar. Duzu başa fırlayıb suya, ya ocağa atardılar. Bu zaman duzun tərkibindən – natrium xlordan aura natriumu çəkir və özünü bərpa edir. Od və su mənfi enerjini – bədnəzəri götürür.

Deməli, biz nənəmlə lağlananda o özünü və bizi bədnəzərdən qoruyarmış. Üzdə sakit görünən birindən daim ailəsini qoruyardı ki, onun nəzəri pisdir. Olanları, keçənləri öz-özümdə analiz edəndə fərqində olmadığımız nələrin olduğunu görürəm.

Nənəm daim su için deyərdi: acqarına su iç, yatanda su iç... sən demə, su maddələr mübadiləsini sürətləndirir, həm də lazımsızların kənarlaşmasında güclü rol oynayır.

Nənəm mütləq hər gün bir bitkidən çay dəmləyərdi. Nənəm, demək olar ki, təbiəti mətbəxə gətirərdi. Qəsəvə adlandırdığı (qaxdan) meyvə şorbasının dadını özüm hələ alındıra bilməmişəm. Qurudulmuş meyvələr daha keyfiyyətli olur, çünki sırf vitamin deposu olur, çünki suyu çəkilib. Nənəmin qaxları da rəngarəng olardı.



Bakıda bizimlə yaşayırdı. Hər kənddən gələn olanda bitki quruları istəyərdi. Biz də anlamadan, hikmətinə varmadan utanardıq. Nənəmin bir balaca çaydanı vardı, içməzdik o çaylardan. Guya modern idik. Əvəlikli əriştəni bəyənib yeməzdik. Nənəm özü tək yeyərdi. Anamız öyrətməmişdi axı...

Amma mən araşdırmalardan və təcrübədən irəli gələrək uşaqlarıma bitki çayları və əvəliyi yeməyi öyrədə bildim. Bir az yekəxanalıq olmasın, mən analıq həyatımda Allahın verdiyi təbii çarə olan nənələrin nəsihətli menyularından istifadə edirəm. Üçillik pandemiyada mən və ailəm qəti qorunmadıq. Hətta maskanı da az – cərimədən qorunmaq üçün istifadə edirdik. Dəfələrlə məktəbdə tənbeh edilsəm də maska geyinmədim. Mənim izah etdiyim qənaəti səhiyyə təşkilatı pandemiyanın sonunda dedi: maska xəstəliyə aparır (əlbəttə, onsuz da özləri bilirdilər).

Xalq təbabətindən dolu-dolu səhifələr yazaram – bildiklərimi, amma bu çox az. Mənim biləyən yaşlılarımın cərgəsi azalıb. Nənəm kimilər yoxdur, demək olar. Yəqin sizin də belə nənələriniz var. Amandı, qoymayın bildiklərini özüylə aparsın. Onların sözləri də, özləri də təcrübədir. Öyrənin və öyrədin.

Həyat sürət qatarıdır, istəmədən bizi çatacağımız mənzilə doğru aparır. Yaxşı bildiklərimizi ömür pəncərəmizdən geridəkilərə ataq. Bilməmək ayıb deyil, öyrənməmək ayıbdır – bunu da nənələr öyrənmək istəməyən gəlinlərə deyərmiş...

**Esmira ƏLƏKBƏRLİ**

*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# UŞAQ BAĞÇALARINDA DƏYİŞİKLİKLƏRİN YENİ MƏRHƏLƏSİ BAŞLAYIR




Elektron bazada uşaq bağçalarının qeydiyyatı başa çatıb və indi islahatın ikinci mərhələsinə başlanılacaq. Bu, uşaq bağçalarının avtorizasiyaya hazırlanmasını nəzərdə tutur.

Məktəbəqədər təhsil müəssisələri öz funksiyalarını nə dərəcədə tam yerinə yetirirlər – bunu Təhsilin Keyfiyyətinin İnkişafı üzrə Milli Mərkəz müəyyən edəcək. 2030-cu ilə qədər isə bütün bağçalar yenilənmiş tələblərlə avtorizasiyadan keçməlidir.

*"Özünüqiymətləndirmə keyfiyyət standartları ilə müəssisənin keyfiyyət uyğunluğunu nəzərdə tutur, ancaq bağçaların miqyası böyükdür, proses isə geniş olduğuna görə bütün məlumatların elektron platformada toplanması mühümdür və onlardan istifadə olunana kimi pilotlaşdırma aparılacaq. Pilotlaşdırma fevral ayında başlayıb və apreldə başa çatacaq. Pilotlaşdırma üçün müxtəlif tipli müəssisələr seçdik ki, platformanı bütün şəraitlər üçün yoxlayışdan keçirək",* - deyə Gürcüstan Təhsil və Elm Nazirliyinin nümayəndəsi Nino Xitarişvili bildirib.

Təhsilin Keyfiyyətinin İdarə Edilməsi üzrə Mərkəzin ekspertlərinin ölkənin bütün uşaq bağçalarını ziyarət edəcəyi də məlumdur. Onlar tövsiyələr verəcəklər və fərdi olaraq avtorizasiya tarixini də müəyyən edəcəklər.

Avtorizasiyadan keçmək üçün bütün bağçalar sanitar-gigiyena normalarına və qida rasionuna riayət etməlidirlər. Strategiyada infrastruktur məsələləri də qeyd olunub: məsələn, uşaq bağçasının binanın yalnız 1-ci və 2-ci mərtəbəsində yerləşdirilməsi mümkündür. Əsas diqqət isə təhsil standartlarına yetiriləcək – uşaq bağçaları yalnız qulluq-nəzarət göstərmə yeri olmamalıdır, həm də təhsil məkanı olmalıdır.

Müəllim və uşaqların sayına da nəzarət olunacaq. Təhsilin Keyfiyyətinin İnkişafı üzrə Milli Mərkəzin rəhbər müavini Kaxaber Eradze bildirib ki, keçid dövrü üçün tənzimləmələr hazırlana bilər, çünki müəyyən məsələlərin həlli üçün vaxt lazımdır: "Ancaq sübutlara əsaslanan qərarlarımız da olacaq – hansı bağçaya hansı hissədə dəstək göstərməliyik. Bütün bağçalarda keyfiyyətin təmin edilməsi üçün daxili sistemin işləyəcəyini 2030-cu ildə deyə biləcəyik".

İndiki mərhələdə bağçalar yalnız iki istiqamətdə – əmək təhlükəsizliyi və qida keyfiyyəti baxımından yoxlanılır. İslahat nəticəsində isə Təhsilin Keyfiyyətinin İnkişafı üzrə Milli Mərkəz 5 istiqamətdə müfəttişlik həyata keçirəcək.

Avtorizasiya prosesi 2025-ci ildə başlayacaq və 2030-cu ildə başa çatacaq. Avtorizasiyadan keçə bilməyən bütün müəssisələr fəaliyyətini dayandıracaqlar.

# ELEKTRON BAZADA 2028 UŞAQ BAĞÇASI QEYDİYYATDAN KEÇİB



Erkən və məktəbəqədər təhsil və tədris sisteminin islahatı çərçivəsində uşaq bağçalarının ilkin elektron qeydiyyatı 2023-cü ilin 31 martında başa çatıb. Ümumilikdə 2028 uşaq baxçası qeydiyyatdan keçib, onlardan 1705-i dövlət, 323-ü isə özəl müəssisələrdir.

Erkən və məktəbəqədər təhsil və tədris sisteminin islahatının ilkin mərhələsi uşaq bağçalarının qeydiyyatdan keçirilməsi idi. Qeydiyyat 2022-ci ildə başlayıb və cari ilin 31 martına qədər davam edib. Fəaliyyət göstərən bütün müəssisələr üçün qeydiyyatdan keçmək vacib idi.

Qeydiyyat nəticəsində elektron bazada müəssisələrin sonrakı göstəriciləri təsvir edilib: hüquqi forması, dövlət və ya özəl sektora mənsubiyyəti, işlə təmin edilmiş əməkdaşların tam sayı və müəssisələrdə qeydiyyatdan keçmiş uşaqların sayı. Qeyd olunan məlumat regional və rayon dairəsində özəl və dövlət sektoruna əsasən əlçatandır.

Qeyd edək ki, elektron bazada qeydiyyatdan keçmiş müəssisələr Təhsilin Keyfiyyətinin İnkişafı üzrə Milli Mərkəz tərəfindən dəstək xarakterli xidmətlər alacaqlar.

# BU İL VAHİD MİLLİ İMTAHANLARA REKORD SAYDA QEYDİYYAT OLUB




2023-cü ilin vahid milli imtahanlarına, tələbələr üçün qrant müsabiqəsinə, ümumi magistratura imtahanına, həmçinin müəllimlər üçün fənn və xüsusi baş müəllim imtahanına qeydiyyat başa çatıb. Bu il vahid milli imtahanlara rekord sayda – 45000-dən artıq abituriyent qeydiyyatdan keçib; 3000-dən artıq tələbə tələbələr üçün qrant müsabiqəsində iştirak etmək istəyini bildirib; ümumi magistratura imtahanlarına isə 10000-dən artıq namizəd qeydiyyatdan keçib.

Müəllimlər üçün fənn və xüsusi baş müəllim imtahanlarına qeydiyyatdan keçmiş aplikantların sayına gəldikdə isə, Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin yaydığı məlumata əsasən, müəllimlər üçün fənn imtahanına 16000-dən çox, xüsusi baş müəllim imtahanına isə 2500-ə yaxın aplikant qeydiyyatdan keçib.

Qeyd edək ki, vahid milli imtahanlarda iştirak etmək istəyənlər fənn dəyişikliyini və əlavəsini 13 aprel saat 18:00-a qədər etməli idilər. Apelyasiya nəticələrinin yayımlanmasının növbəti günü saat 18:00-a qədər fənn proqramları siyahısında dəyişiklik etmək mümkün idi. Əgər abituriyentə imtahan zamanı xüsusi şərait/spesifik imtahan mühitinin yaradılması lazımdırsa və qeydiyyat zamanı müvafiq qrafanı işarələyibsə, 13 aprel saat 18:00-a qədər Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzə ərizə ilə birlikdə sağlamlıq vəziyyəti ilə bağlı müvafiq formanı da (100 forma) təqdim etməli idi.

Xatırladaq ki, vahid milli imtahanlara, tələbələr üçün qrant müsabiqəsinə və ümumi magistratura imtahanlarına qeydiyyat martın 2-si; müəllimlər üçün fənn, xüsusi baş müəllim imtahanlarına qeydiyyat isə martın 10-u başlayıb və 3 aprel saat 18:00-da başa çatıb.

Peşə bacarıqları imtahanı (aparıcı və mentor müəllim statusu qazanmaq istəyənlər üçün) və xüsusi aparıcı müəllim imtahanı vermək istəyənlər üçün yaxın gələcəkdə qeydiyyat başlayacaq. Ətraflı məlumat Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin veb-səhifəsində (naec.ge) yayımlanacaq.

# XALQ MÜDAFİƏÇİSİ: ETNİK AZLIQLARIN MƏSKUNLAŞDIĞI YERLƏRDƏ UŞAQ BAĞÇALARI ÇATIŞMAZLIĞI VAR

Xalq Müdafiəçisinin 2022-ci il hesabatında ölkədə uşaq bağçalarının çatışmazlığı və bağça qruplarında uşaqların sayının lazım olduğundan artıq olması məsələlərinə diqqət yetirilib.

Sənəddə yazılıb ki, 2022-ci ilin göstəricilərinə görə, Gürcüstanda ümumilikdə 1668 erkən və məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərib, onlara 20 uşaq bağçası əlavə olunub. Həmin müəssisələrdə ümumilikdə 148 658 uşaq qeydə alınıb. Ancaq ötən illərdə olduğu kimi, müəssisələrin sayı məktəbəqədər yaşda olan uşaqları tam əhatə etmir. Nəticədə uşaq bağçaları yenidən dolur. Fiziki, eləcə də coğrafi əlçatanlıq problemləri yaranır. Yenə də insan resurslarının gücləndirilməsinə ehtiyac var.

Keyfiyyətli erkən və məktəbəqədər təhsil almaqla bağlı çatışmazlıqlar, ərazi əlçatanlığı, bilinqual təhsil qıtlığı və uyğun kadrların çatışmazlığı milli azlıq nümayəndəsi olan uşaqlar üçün xüsusi olaraq diqqətə yetirilməlidir. Etnik azlıqların məskunlaşdığı kəndlərin bir qismində uşaq bağçalarının olmaması da buna işarədir. Misal olaraq qeyd edək: Bolnisi bələdiyyəsinin etnik azlıqların sıx məskunlaşdığı Daba Tamarisidən başqa heç bir icmada uşaq bağçası fəaliyyət göstərmir. Ninotsminda bələdiyyəsində məktəbəqədər təhsil müəssisələri yalnız 10 məntəqədə var, qalan 21 məntəqədə isə məktəbəqədər təhsilin əlçatanlığı çətindir. Həmçinin Marneuli bələdiyyəsində məktəbəqədər təhsilin əlçatan olmadığı əksər kəndləri qeyd etmək olar.

Nəzərə almaq lazımdır ki, bu problemlərin həllini "Erkən və məktəbəqədər təhsil və tədris haqqında" Gürcüstan qanununda edilmiş dəyişikliklər qismən təxirə saldı. Həmin dəyişikliyə əsasən, bağçaların avtorizasiya dövrü 2030-cu ilə qədər uzadıldı, ancaq əvvəlki dövr üçün keçid tədbirlər müəyyən edilib. Bu məsələ ilə əlaqədar Gürcüstan hökumətinin təşəbbüsü alqışlanmalıdır. Həmin təşəbbüs 330 yeni uşaq bağçasının tikintisini və mövcud olan 555 bağçanın bərpasını nəzərdə tutur.

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb. Gürcü dilindən tərcümə etdi:*
**Aynurə ƏLİYEVA**

# SAYILI GÜNLƏRİN HƏYƏCANI



Məktəb... bizim ikinci evimiz. Dünən kimi xatırlayıram, üçüncü sinifdə oxuyanda müəllim dedi: "Bu gün axırıncı dərslər keçilməyəcək, "Son zəng"dir, həyətə düşün, siz də baxın". Hər birimiz sevincək çantalarımızı alıb həyətə düşmüşdük. 12-ci sinifləri məzun olan günü ağlayaraq görəndə fikirləşirdik ki, bunlar niyə ağlayırlar? Zənn edirdik ki, səhər tez durmaqdan, dərslərdən, müəllimlərdən canları qurtardı...

Məktəb həyatı, məktəb illəri sona yetərkən təəssüflənir, bu illərin bitməsini istəmirik. Acılı-şirinli xatirələrlə dolu olan bu illər insanın, adətən, uşağlıq və gənclik dövrü arasında pillələrə bənzəyirmiş. Hər pilləni qalxdıqca daha da yetkinləşirsən. Sonuncu pillə isə yeni həyatın başlanğıcı, gələcək həyatın başlanğıc nöqtəsidir. Ona görə də gərək bu illəri elə yaşayasan ki, ömrün axırıncı pilləsindən baxanda belə o illərin şirin xatirəsində özünü tapmağı bacarasan. Unudub, unudulmayasan...

"Son zəng" ab-havası hər yana yayılıb artıq, adətən "Son zəng" gününə hazırlıq bir il öncədən başlayır. Müxtəlif mahnılar, rəqslər, teatr tamaşaları hazırlanır. İndi onu bir az daha yuxarı pilləyə daşıyıblar – rəqs üçün xüsusi müəllimlər tutulmalıdır; mahnı yazmaq üçün mütəxəssis biri lazımdır.

Biz məzun oluruq deyib məktəbə iz qoymağa çalışanlar var – divarlara mismarla adlarını, siniflərini yazanlar, şəxsi partasıymış kimi partalara istədikləri şəkilləri çəkənlər... Bu məktəbdə, bu sinifdə bizdən sonra şagirdlərin oxuyacağını düşünən yoxdur. "12 a, b, c" kimi yazılar hər tərəfi bəzəyir. "12 a" deyir: bizdən yoxdur, hər şeyin bahalısını biz etməliyik, nə varsa da bizimdir, bizdən artıq qalanlar sizin ola bilər. O biriləri isə deyir: bizik ən üstün... Doğrudan soyuq müharibə gedir.

Bunları qoyaq kənara, keçək müasir məzunların digər illərin məzunlarından fərqlənməsinə. Əgər məzun olursansa xüsusi paltarlar geyinməlisən, məzun lentin sadə olmamalıdır, daha dünyanın o biri ucundakı ölkədən sifariş olunur. Üstünə bərli-bəzəkli adlar, soyadlar yazılır. Bir sözlə, hər şey mükəmməl olmalıdır. Bunların da hər biri pul tələb edir. Valideynlər də "uşağım ömründə bir dəfə məzun olur" deyib varını-yoxunu verməyə razı olurlar...

Restoran sahibləri sevinir, dərzilərin bir dəqiqə olsun vaxtı olmur. Ən karlı çıxanlar isə operatorlar və fotoqraflar olur...

Birinci siniflər üçün hədiyyələr alınır, qarşılığında gül dəstəsi verilir...

Qızlar gözəllik salonlarına xeyli maya qoyurlar. Oğlanlar oxumaqdan canlarını qurtardıqları üçün bayram edərək maşınlarının üzərinə məzun yazıb, lentlər, bayraqlar bağlayıb düşürlər küçəyə, o başa-bu başa fırlanırlar. Bununla nə demək istədiklərini bilmirəm, yəqin ki, özlərini camaata göstərib, "baxın, biz məzun oluruq" demək istəyirlər. Əsas odur, bir günlük xoşbəxtdirlər. Sonra o an gəlib çatır...

Bu da "Son zəng" 12 il bir yerdə oxuduğun, bir yerdə əyləndiyin, küsüb barışdığın sinif yoldaşlarından ayrılıq anı. Heç zaman unudulmayan, yaddaşlardan silinməyən an, budur, gəlib çatdı.

Nə bilirdik ki, illər belə tez ötüb keçəcək, 12 il oxuduğumuz, birlikdə böyüdüyümüz, boy atdığımız bu məktəbdən ayrılacağıq.

Bəzən dərsdən sıxılıb çölə çıxmaq üçün müəllimlərdən icazə alanda "Bu günlər üçün çox darıxacaqsınız, sadəcə bu sinifdə oturmaq üçün, o parta arxasında oturmaq üçün hər şeyinizi verməyə hazır olacaqsınız" deyərdilər. Biz də gülüşüb "Məktəb üçün niyə darıxaq ki, canımız qurtulacaq" deyərdik.

Etiraf etsək, kaş bu gün müəllim dərsə gəlməyə, evə getsək nə yaxşı olar, deyə istəyimiz çox olub. O 45 dəqiqə heç bitmək bilməzdi, "neçə dəqiqə qaldı", "zəng vurulmurmu", "nə dərsidir", "yenəmi yoxlama yazırıq" deyə bir-birimizlə pıçıldaşaraq deyinib dururduq. İndi, necə deyərlər, hər şeyin dəyərini insan itirdikdən sonra anlayır. İndi girmək istəmədiyimiz, qurtarması üçün dəqiqələri saydığımız dərslərin bitməsini istəmirik.

Məktəbə təkcə bədən tərbiyyəsi dərsi olan günü deyinmədən durub gedərdik...

Sonra "Son zəng" çalınacaq.

"Son zəng" çalındığı an məzunlar gözyaşlarına tutulurlar – kimi doğma məktəbdən ayrıldığı üçün, kimi on iki il oxumayıb, axırda da zəhmət çəkib gəlib-getdiyi məktəbdən əliboş getdiyi üçün öz gününə ağlayır, kimisi də boş vaxtlarını bundan sonra harada keçirəcəyinə ağlayır.

Haradan bilərdik ki, səhər şirin yuxudan oyanıb getmək istəmədiyimiz məktəb üçün bir gün göz yaşı tökəcəyik.

Hamımızı yeni bir həyat gözləyir, amma doğma məktəb həmişə ikinci evimiz olaraq qalacaq.

**Aytən Fətullayeva**

*Qardabani 3 saylı ictimai məktəbin 12-ci sinif şagirdi*

# DİPLOMLU SAVADSIZLAR



Bəli, düz oxudunuz: diplomlu savadsızlar. Heç diplomu olan şəxs də savadsız olar? Çünki onlar savadlarını öz xeyirlərinə işlədirlər. Onlar alim olmağı bacarıb, insan olmağı bacarmayanlardır. Bəs keçmişdə necə? Keçmişdə də diplomlu savadsızlar olmuşdurmu? Ancaq keçmişdə, hətta texnologiyaların bu qədər inkişaf etməmiş olmasına baxmayaraq, savadlı insanlar çox idi. Düzdür, günümüzdə keçmişlə müqayisədə diplomu olan şəxslər çoxdur. Yəni dəyişən sadəcə diplomların sayı olub. Günümüzdə elə insanlar var ki, iki universitet bitirib. Lakin yiyələndikləri peşənin özlərindən başqa heç kimə bir faydası yoxdur.

Məsələn, həkim olub səhv diaqnoz qoyurlar, hətta əməliyyat zamanı aləti yadlarından çıxarıb pasiyentin bədənində qoyurlar. Hər xəstəliyin müalicəsini məhz əməliyyatda görürlər. Belə ki, bizim yaşadığımız rayonun sakinlərinin 90-95 faizi, özləri bilməsələr də, "öd və kor bağırsaqdan əziyyət çəkirlər". Həkimə gedən hər kəsin öd və ya kor bağırsağı əməliyyat olunmalıdır. Bir sözlə, əksər xəstəliyin müalicəsi ya əməliyyatdır, ya da əməliyyat...

Bir də var müəllimlər – hər peşənin mənbəyi. Oxuduqları fənni tədris etməyənlər. Müəllim olub uşaqların gələcəklərini məhv edənlər də var. Hansı ki, uşaqların müəllimlərindən görüb öyrənəcəkləri şeylər çoxdur. Bütün müəllimlərə şamil etmirəm. Ancaq günümüzdə şagirdlərə ağzına gələni deyən, döyən, təhqir edən müəllimlər var. Valideynləri uşaqlarının hansı fəndən zəif olduğunu görəndə onlara dəstək olmaq üçün əlavə dərslərə qoyurlar ki, uşağı daha yaxşı oxusun. Dəfələrlə şahidi olmuşam, məktəbdə elə müəllimlər var ki, uşaq onun yanına hazırlığa gedəndə uşaqlara dərslərin cavabı birbaşa ətraflı öyrədilmədən verilir, eyni zamanda, həmişə məktəbdə həmin müəllimin dərsində sözdə dərsi ən yaxşı bilən, oxuyan, tərbiyəli şagird də məhz onlar olurlar...

Hakim olub, ədalətdən danışıb ədalətsiz olanlar, rüşvətxorluq edənlər, ədaləti pula satanlar da var.

Bəs vəkillərə nə deməli, elə vəkillər var ki, onlar da kimin haqlı, kimin haqsız olmasına baxmayaraq nə qədər əllərinə pul gəlirsə, o qədər də çox ədalətsiz olurlar. Sözdə "həmişə ədalətlidirlər və hər zaman haqlının yanındadırlar". Yəni, qısacası, bunların hər biri diplomlu savadsızlardır ki, savadlı olmaq istəyənlərin arzularını ürəklərində qoyurlar.

**Validə Fətullayeva**

*Qardabani 3 saylı ictimai məktəbin 12-ci sinif şagirdi*

# BOŞ VAXTINI DOLDURANLAR VƏ VAXTINI BOŞA KEÇİRƏNLƏR



Dünyamız çox gözəl bir yerdir. Yaşadığımız şəhər, məkan çox gözəldir. İnsanlarımız haqqında bunu deyə bilməyəcəm. Çünki çox pis qəlbli insanlar var, pis düşünən, hər şeyə pis tərəfdən baxan, etmək istədiyi bir şeyi başqasının düşüncəsinə buraxan... Məsələn, "eşiyə çıxma, geridən baxan nə deyər", "bunu geyinmə, dalınca yüz söz deyərlər", "saçını açıq qoyma, deyəcəklər özünə ər gəzir" və sair...

Nəyə görə axı? Mən hələ də baş aça bilmirəm. Kimin kimdə nə işi var. İnsanlar başqalarının həyatlarına qarışmağı özlərinə haqq bilirlər. Belə insanlara başqalarına dedikləri sözü özlərinə deyincə, mənim həyatım səni niyə maraqlandırır deyirlər. Amma mənim saçım, mənim geyimim, mənim harasa getməyim səni maraqlandıra bilər. Və bunu artıq bir iş, bir peşə halına gətirib çıxarıblar. Boşluqdan bilməyirlər nə etsinlər. Ya birinin ailə həyatını yıxmalıdırlar, ya da kimisə bir-birinə qırdırmalıdırlar. Ona görə də bu tip insanlar çox təhlükəlidirlər. Məncə onlar jurnalistlərin yerinə keçməlidirlər. Çünki kim harada, kiminlə nə edirdi, haradan gəlib, haraya gedirdi suallarını çox verirlər.

Yenə dar görüşlü fikirlər, eybəcər danışıqlar... İnsanlar dəyişən deyil. Düşünürəm, bəlkə bir gün hər şey yaxşı olar, bəlkə sabah olmasa da, amma bir gün... Bəlkə də bu dünyanı biz dəyişək?..

Deyirlər, qız uşağı oxumaz! Niyə? Öz əli pul tutub, sizə möhtac olmayacağı üçünmü? Qız maşın sürə bilməz! Niyə? Heç kimə ehtiyacı olmayacağı üçünmü? Makiyaj edə bilməz, gəzməyə gedə bilməz və daha nə qədər bilməzlər... Niyə axı?

Nəyə görə övladlarınızın həyatını qısaldırsınız? Niyə imkan vermirsiniz ki, dünyagörüşləri ola? Amma oğlana hər şey olar. Qıza qadağandır. İstərdim ki, "ona olar, buna olmaz" söhbəti olmasın. Baxın, zaman su kimi axıb gedir. Biz həyatda nəyi qazana bilmişik? Onun-bunun arxasıyca danışmaqdan başqa heç nəyi.

Hər şeyi bir kənara buraxın. Kim kiminlə sevgilidir, kim kimdən ayfon istəyib, kim boşanıb... – bunları boş verin! Enerjinizi belə şeylərə xərcləməyin.

Necə nail ola bilərəm, uğur qazana bilərəm deyə fikirləşin. Həyatda çox gözəl şeylər var. Məsələn, boş vaxtlarınızda çiçək əkə, kitab oxuya, şeir yaza, rəsm çəkə, pianino çala bilərsiniz... Mən boş vaxtlarımda albom düzəldirəm, çiçəklərimi sulayıram, çəmənlikdə uzanıb quşların səsini dinləyirəm... Bunları siz də edə bilərsiniz – insanlardan, dedi-qodudan uzaq, sakit bir məkanda. Bəlkə onda ağlınız yaxşılığa işləyər, pisliyə deyil.

**Sübhanə Abdullayeva**

*Qardabani 3 saylı ictimai məktəbin 12-ci sinif şagirdi*

# "KOROĞLU"NUN ƏXLAQİ-ESTETİK ƏQİDƏSİ

**Elizbar CAVELİDZE**



*(əvvəli ötən sayda)*

**İkinci boy.** Gözəl günlərin birində tənha yola çıxan Koroğlunun üstünü yanında dəstəsi olan tanınmış qaçaq Dəli Həsən aldırır. Lakin döyüşün üzərində dayanana kimi, Dəli Həsənin simasının yaradılmasının ilkin şərtini xatırlasaq daha münasibdir. Ümumiyyətlə, Koroğlu dövründə baş verən döyüşlərin xarakterini Osmanlı və İran dövlətlərində hökm sürən sosial zülm və despotizm şərtləndirir. Məhz elə haqsızlıq və dini əqidənin barışmazlığı XV-XVII əsrlərdə bütün Yaxın Şərqi bürüyən kəndli üsyanlarını əmələ gətirmişdir. Bu dəfə başında Qara Yazıçının olduğu, hələ 1596-cı ildə sultana qarşı çıxmağa başlayan Cəlalilərin üsyanı xüsusilə diqqətəlayiqdir. Bu üsyanda 20-30 min qiyamçı iştirak edirdi ki, bu da əsasən kəndlilərdən, kürd və türkmən xırda və orta köçərilərdən ibarət idi. Qara Yazıçı uğurlu mübarizədən sonra məğlubiyyətə uğradı, dağlara qaçdı və oradan hücumları uğurla həyata keçirirdi. Lakin hərbi qüvvələrə başçılıq edən Hasan paşa 30 min qiyamçını məğlub etdi, Qara Yazıçının özü isə yenə dağlara sığındı. Lakin o yaralı idi və tezliklə vəfat etdi. Onun ölümündən sonra üsyançıların başına onun qardaşı, Tokatın qala-qəsrinə sığınan, nəhayət, qiyamçıların həyatına son qoyduqları Hasan paşanı məğlub edən Dəli Həsən keçdi.

Halbuki bu böyük uğura baxmayaraq Dəli Həsən sultandan dözümlülük göstəməyi xahiş edib və sultanın razılığından sonra o, öz məsləkdaşları ilə Osmanlının nizami qoşununa qəbul edilir. Odur ki, o və onun döyüşçüləri qiyam qaldıran kəndlilərə xəyanət edirlər. Lakin kəndlilərin üsyanları sonralar da davan edirdi. Bir çox şəhərləri alan, zəbt edən Qələndəroğlunun başçılıq etdiyi miqyaslı üsyanı diqqətə layiqdir. Halbuki bu qiyamı Sultanın Murad paşanın rəhbərlik etdiyi cəzaverici ekspedisiyası xüsusi amansızlıqla yatırdı *(Bax: Mixeil Svanidze, Türkiyənin tarixi (1999-2000), Tbilisi, 2007-ci il, səh. 188-191. Твеританова А.С., Восстание Кара Языджа-Дели Хасана в Турции, М.-Л., 1946).*

Bu kiçik tarixi ekskursiyanı gətirmək ona görə lazım gəldi ki, fikrimcə, xalqın yaddaşı bu məşhur qaçağın adını tarixi şəxsiyyətlə, dəfələrlə dağlara çəkilən, oradan hücumlar həyata keçirən üsyançıların başçısı Dəli Həsənlə əlaqələndirir. Xalq onun haqsızlıq uğrunda mübarizə aparan simasını qoruyub saxlamışdır ki, bu da onun məqsədinə can atmasına uyğun gəlir, onun igidliyinə kölgə salan xəyanətkarlığını isə bilərəkdən heçə saymışdır.

Düşünürəm ki, "Koroğlu"nun epizodlarında tez-tez xatırlanan Hasan paşanın adı da bir müstəbid və haqsız despod olaraq təsadüfi olmamalıdır və onun fiziki məhvi də məhz elə tarixi müstəbid Hasan paşa ilə əlaqədardır.

İndi yenə ikinci boyda inkişaf edən hadisələrə qayıdaq. Dəli Həsən Koroğlunun üstünü aldıranda onun Qıratı qaçağın diqqətini çəkdi və onda atı onun əlindən almaq istəyi baş qaldırdı ki, bu, qaçaq üçün tamamilə təbiidir. Burada onlar arasında dialoq baş verir, daha doğrusu, burada ilk dəfə mahnı ilə özünü və baxış dairəsini, igidin necə olmasını göstərən aşıqla – Koroğlu ilə tanış oluruq: Əvvəlcə özünü igid kimi, Gündoğandan Günbatanadək ona tabe olan igidlərin xanı kimi təqdim edir. Onun dediyi kimi, savaş meydanına girən igid qaynayıb coşmasın gərək, qismətdən qaçmasın gərək. Sonra Dəli Həsənə üz tutur: And içmişəm, bu gün döyüş olmasın, bizim aramızda münsif tapılsın və sair *(Bax: "Koroğlu", Tbilisi, 2010-cu il, səh. 37).* Bu təklifi Dəli Həsən qorxaqlıq hesab edir və başının adamlarını onun atının əlindən alınmasına və özünə də bir-iki vurub yola salınmasına çağırır. Dəli Həsənin dəstəsi ona hücum edəndə bir yandan Koroğlu "Misri" qılıncı ilə, bir yandan onun Qıratı az vaxta dəstəni qatım-qatım qatlayıb əldən-ayaqdan saldılar.

Nəhayət bu iki pəhləvan qılınclarını çəkib bir-birlərinə hücum etdilər. Sonra amuda, nizəyə əl atdılar və bu cür savaş bir nəticə vermədi, atdan düşdülər və güləşməyə başladılar. Gah o buna güc gəldi, gah da bu ona. Axırda Koroğlu dəli bir nərə çəkdi, Dəli Həsəni götürüb yerə vurdu və Koroğlu qılınca əl atanda Dəli Həsən bir ah çəkdi. Koroğlu ona deyir ki, bir qaşıq qanından qorxub niyə belə ah çəkirsən? Dəli Həsən isə ona deyir: "Ey igid, mən canımdan qorxub ah çəkmirəm. Əhdim var idi. Əhdimə çatmadım... Mən əhd eləmişdim ki, hər kim məni bassa, onunla dost, qardaş olam. Ölənə qədər onun yanında qalam. İndi sən məni basdın, ancaq öldürürsən, əhdimə çata bilmirəm". Dəli Həsənin dediyi bir mövə Koroğlunu sevindirdi. Dəli Həsənin qolundan yapışıb qaldırdı, əlini üç dəfə onun kürəyinə vurdu. Onlar bir-birlərinə and içdilər və Dəli Həsən könüllü yeddi il ərzində bəylərdən, xanlardan, istərsə də tacirlərdən alıb yığdığı mal-dövlətin hamısını Koroğluya təklif etdi, onun xeyir-duasını verdi. Həsən mağaraların birində saxlanılan özünün əldə etdiyi mal-dövləti Koroğluya göstərdi. O isə ona dedi: "Qoy bunlar hələlik elə buradaca qalsınlar. İndi bunlar bizə lazım deyil. Amma elə ki, Çənlibeldə yurd-yuva saldıq, başımıza dəlilər, igidlər yığıldı, onda bunlar bizə lazım olacaq". Doğrudan da belə oldu.

Bu kiçik boy süjet inkişafının gərginliyindən məhrumdur, lakin bu onunla diqqətəlayiqdir ki, Koroğlu, birincisi, ilk dəfə aşıq dərəcəsində bizə təqdim olunur və məsələləri mahnı ilə həll etmək istəyir. Və ikincisi də, "yaxşı igid"in etik davranışı və əqidəsi barədə mühakimə başlayır.

**Üçüncü boy.** Bu dastanın süjet məhvəri Koroğlu tərəfindən İstanbul xotkarının qızı gözəl Nigar xanımın qaçırılması və onun Çənlibelə gətirilməsi üzərində qurulub. Bu, bir neçə epizodu əhatə edir: a) Koroğlunun adı bütün aləmə yayılıb; Ölkənin hər dörd tərəfindən öz xanından, paşasından zülm görən igidlər Çənlibelə gəlir, Koroğluya qoşulurlar və orada məskunlaşırlar. Çənlibel qəsəbəsi çoxsaylı oldu və onun həyatı da dirçəldi və canlandı. b) İstanbulun kəndlərinin birində Bəlli Əhməd adlı yeniyetmə, cavan oğlan vardı. "Amma güc-də-qüvvətdə Rüstəm pəhləvana bac verməzdi". O, Koroğlunun sədasını eşitmişdi, ona qoşulmaq qərarına gəlir və yola çıxır. İstanbula çatan Bəlli Əhməd qəlbində Koroğluya qarşı məhəbbət hissi bəsləyən Nigar xanıma rast gəldi. Bu sonuncu eşidəndə ki, Bəlli Əhməd Koroğlunun yanına gedir, Koroğluya namə yazdı, qolundan bazubəndini də açıb ona verdi. Bəlli Əhməd bazubəndi də, naməni də Koroğluya verdi. c) Koroğlu İstanbula tək getmək və Nigar xanımı qaçırmaq qərarına gəlir. O, oğlu Nigar xanımın bağbanı olan bir qoca qarının qonağı olur. Lakin öz istəyini bərqərar edənə kimi xotkarın qızı ilə şəxsən tanış olmaq istəyir. Çavuş paltarı geyinir və çox cəfa çəkəndən sonra xanım ilə təkbətək görüşə nail olur. Əvvəlcə Nigar xanım onu adi aşıq olaraq hesab edir və ondan aralaşmaq niyyətində olur. Lakin aşıq Koroğlunun adını tez-tez xatırladığından şübhələndi və sonra bazubəndini görəndə bir daha əmin oldu ki, onun qarşısında duran Koroğludur. "Ala gözlərini dolandırıb, bir müştəri gözü ilə ona baxdı. Deyirlər ki, məhəbbət gözlə olar. Elə ki, gözlər bir-birinə sataşdı, ürəklər başladı döyünməyə" *(Bax: elə orada. səh. 54).* Koroğlu nar bağında onun qolundan tutdu, Qıratın tərkinə aldı və Çənlibelə tərəf üz qoydu. Bu xəbər yayıldı. Nigarın qardaşı olan Bürcü Sultan ata mindi, qoşuna hay vurdu, özü qızı götürüb qaçanın arxasınca düşdü. Koroğlu yuxusuz və yorğun olduğundan bir bulağın başında istirahət etmək qərarına gəldi. Nigar nə qədər elədi ki, gəl gedək, qoşun gəlib bizə çatar, səni öldürərlər, məni də geri qaytararlar. Ona qulaq asmadı. Bu ərəfədə qardaşı özünü yetirdi və Koroğluya səsləndi: "Qızı ver, quldur". Buna da Koroğlu rahatca cavab verdi: "Xotkar oğlu, hirslənmə! bacını aparmaq istəyirsən, gəl apar, day söyüş niyə söyürsən?" Bürcü Sultan bu sözü eşidəndə bir az da cürətləndi. Qəzəblə dedi: "Necə ki, yəni gəl, apar? Mən onu sənin başınla bir yerdə aparacağam". Heç də mübarizə olmadı, Koroğlu bir fəndlə onun peysərindən yapışdı. Bürcü Sultan nə qədər əlləşdisə boynunu onun əlindən qurtara bilmədi. Nəhayət, əlini çəkdi və onu buraxdı. Lakin azad olunan Bürcü Sultan yenə Koroğluya hücum etdi. Koroğlu onu yerə yıxdı. Lakin Nigar xanımın yalvarışına görə yenə onu bağışladı. ç) Utandığından Bürcü Sultan təkbaşına Koroğlunu təqib etməyə ərk edə bilmədi. Onun qoşunu yetişəndə ürəklənmiş halda təzədən Koroğlunun dalına düşdü. Bu dəfə də Nigar xanım xahiş edir ki, onun atasının qoşunu çoxdur, sən təksən, onlarla bacarmazsan, dava eləmə. Yolumuza davam edək. Koroğlunun öz yarına cavab verməsi bir növ diqqətəlayiqdir: "Mən səni Çənlibelə bu cür apara bilmərəm. Sonra deyərlər ki, Koroğlu gedib xotkarın qızını oğurlayıb gətirib. Mən gərək dava eləyəm" *(Bax: Elə orada, səh. 60).*

Bu ərəfədə xotkarın qoşunu gəlib çatdı. Koroğlu qılıncı çəkdi, qoşun üzərinə hücuma keçdi. O yanda yenə dəlilər narahat oldular. Koroğlu gecikdi, bədbəxt hadisə baş vermədi ki, deyə düşündülər. Dəlilərin dəstəsi Koroğlunun dalınca yola düşdü, Koroğlu tək mübarizə aparırdı, nərə çəkdilər və xotkarın qoşununa hücuma keçdilər. Koroğlu dəlilərin gəlişindən bir növ sevindi və bu çoxsaylı qoşunu bir hala saldılar ki, qırılan qırıldı, qırılmayan da qaçıb dağıldı.

Koroğlu tərkində Nigar xanım və dəlilər Çənlibelə tərəf yollandılar. Çənlibelə çatdılar. Şənlik başlandı. Çalanlar, oynayanlar, oxuyanlar bir-birinə qarışdı. Hamı bir növ sevinirdi, lakin Bəlli Əhməd xüsusilə sevinirdi.

Üçüncü dastanın süjetinin məhvəri düzxətli deyildir və bir neçə parçadan, başqa cür desək, sapmalardan ibarətdir ki, bu da əsas əhvalatın inkişafına dinamizm kəsb etdirir. Qəhrəmanlıq eposunun əsas personajı artıq ümumxalq tərəfindən ad-san, şöhrət qazanmış qəhrəman olaraq bizə təqdim olunur ki, bu da, xanların, paşaların, bəylərin, tacirlərin yuxusunu ərşə çəkdirir. Və, ümumiyyətlə, camaat onu bir cür qavramır: bəziləri ona tərəf can atırlar, bəziləri isə ehtiyat edirlər. Bu, Koroğlu ilə qonaq getdiyi qoca arvadın söhbətindən aydın görünür. Qoca arvad ona şübhəli və qorxulu gözlə baxır və yuxusu qaçır. Koroğlu bunun səbəbini soruşur. Arvad cavab verir ki, onun kim olduğunu anlaya bilmədi: Rüstəm pəhləvandır, yoxsa Ərəb Reyhan, Giziroğlu Mustafa bəymi? Naməlum qonaq gülərək inkar edəndə, arvad tərəddüd edir, sonra ona deyir: "Bala, onda, vallah, az qalıram... Ay bala, birdən sən o Koroğlu olarsan ha..." Koroğlu onun gümanını təsdiq edəndə arvadın ürəyi getdi, arvad elə özünə gələcək durdu ayağa ki, qaçsın, Koroğlu onun biləyindən tutdu ki: "Ay ana, hara qaçırsan? Mən adam yeyənzad deyiləm ki, məndən qorxursan?" Arvad cavad verdi: "Niyə səndən qorxuram? Mən çox igid arvadam ki, sənin adını eşidəndə bağrım çatlamayıb. Sənin adını eşidəndə pəhləvanlar gizlənmək üçün siçan deşiyi axtarırlar. Mən bir özümdən getmişəm, çox görürsən?" *(Bax: Elə orada, səh. 50).* Elə burada Koroğlunun nə deməsi maraqlıdır: "Ay ana, deyəsən, paşalar, tacirlər məni burada çox pis qələmə veriblər, onlar məndən qorxmağa haqlıdırlar. Çünki, mən ki, varam, onların qatiliyəm. Amma day sən niyə məndən qorxursan?" *(Bax: Elə orada, səh. 50).* Çevik, qısa dialoqla və dinamizmlə yuxarıda verilən epizod Koroğlunun igidliyi, onun şan-şöhrəti və xalq arasında bu ada qarşı münasibət barədə bizə aydın mənzərə yaradır.

Elə burada vurğulamalıyam ki, Koroğlu bu dastana uyğun olaraq bir mövə mahir insandır (Çavuş libasında Nigar xanımın qarşısında özünü aşıq olaraq göstərməsi) və eləcə də savaş zamanı müəyyən vasitə və fənddən istifadə edəndir (Bürcü Sultan ilə ilk döyüş zamanı), lakin elə bu zaman qorxmazlığını və sarsılmazlığını unutmamalıyıq. Elə burada onun əxlaqi xüsusiyyətinin bir cizgisi özünü büruzə verir – o, igid olaraq qadını gizli oğurlamağı özünə ayıb bilir, qaçırtmağı isə igidlik olaraq hesab edir. Müəyyən olunduğu kimi, azərbaycanlıların qədim ənənəsi idi.

*(davamı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

# NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR
## HƏYAT DƏRSLƏRİ
### 31. SİYASİ İQTİSADDAN TƏCRÜBƏ DƏRSLƏRİ VƏ YA ŞOPİNQ



*(əvvəli ötən sayda)*

Kapitalizmdə hər şeyin alınıb-satıldığına, hər şeyin bazar üçün əmtəə olduğuna dair müəyyən bilgilərim var idi. Hər şey adlandırdığım bu hər şeyin – istər maddi, istər mənəvi olsun, satılıb-alındığını təsdiqləmiş oldum. Düzdür, bunlardan xəbərdar idim, həyatda bunları görmüşlüyüm də vardı. Hətta mən adamların adamlığını, satqınların dostlarını, xainlərin vətənini satdığını da görmüş biriyəm. Niderlanda gəlişimdən sonra bu nəzəri bilgilərimi təcrübədə də isbatlaya bildim. Əllə toxunula biləcək, gözlə görüləcək, qulaqla eşidiləcək, burunla qoxulanacaq, ağızla dadılacaq bu hər şey satlıqdır, alıcısı da sırada. Düzdür, burada sıra da, növbə də avropasayağı nizamlıdır. Nə bir qarışıqlıq, nə bir basabas.

Kapitalizmi istehlak cəmiyyəti kimi də xarakterizə edirlər. Kapitalizmin insanları istehlakçılığa alışdırdığını, daha çox mal tükətməyə öyrəşdirdiyini, lazım olandan artığını almağa təşviq etdiyini mən Niderlandda daha yaxşı anladım. Marketə, alış-veriş mərkəzinə əliboş girib, əlidolu çıxmağa, birinin yerinə beşini almağa vərdiş edən insanlar kapitalizmin həyat qaynağıdır. Yeri gəlmişkən, inkişaf etmiş kapitalist cəmiyyətində istehlakçılığın yaratdığı fəsadlar arasında istifadə müddəti başa çatdığına görə yararsız hala düşən ərzaq məhsullarının zibil kimi atılması adi haldır. İstifadə edəcəyindən artıq ərzaq alan müştəri saysız-hesabsızdır. İstifadə müddəti azalan məhsulların mağazalarda endirimlə, hətta maya dəyərindən aşağı satılması müştəriləri lazım olandan artıq almağa təhrik edir. Az pula çox mal aldığını düşünən müştəridə get-gedə almaq asılılığı, alışqanlığı yaranır, almasa durub dincələ bilmir. Bu onun adətinə çevrilir. Canına-qanına hopur. Adətin də tərk edilməsinin xəstəlik yaratdığından da xəbərimiz olmalıdır. Və bu müştəri də onu tərk edə bilmir, bu vərdiş onun xarakterinin ayrılmaz ünsürünə çevrilir, almaq həyat tərzinə çevrilir. Alış-veriş mərkəzlərinin gurultusuna, gözqamaşdırıcı parıltısına aludə olan insanı oradan aralamaq get-gedə çətinləşir. Onun bu məkanlardan qoparılması müxtəlif psixi pozulmalarla müşayiət olunur.

Örnək üçün IKEA alış-veriş mərkəzinə daxil olmamız, bir az onun içərisinə nəzər yetirməmiz mövzunun anlaşılmasında bizə yardımçı olacaq. Amersfoortda, Rotterdamda olduğum IKEA mağazaları nəhəngliyi ilə diqqətimi cəlb etmişdir. Kiçik fərqlərə baxmayaraq hər iki məkanda da eyni mənzərəni müşahidə etmək olar. Hansı birinə istəsəniz daxil ola bilərik. IKEA əsası 1943-cü ildə İsveçdə 17 yaşlı İngvar Komprad tərəfindən qoyulan, müxtəlif mebellər və ev avadanlıqları hazırlayıb satan bir şirkətdir. Şirkətin dünyanın çox yerində mağazalar şəbəkəsi mövcudur. Bu mağazalardan birinə daxil olan alıcının oradan əliboş çıxacağına kiçik bir ehtimal belə yoxdur. Çoxmərtəbəli bu alış-veriş məkanlarında sadəcə dolaşıb çıxmaq üçün 3-4 saat vaxt xərcləməlisən. Burnu yemək qoxusu alan, bununla da arıq 3-4 saat vaxtın keçdiyini, yemək vaxtı olduğunu anlayan müştərilərin əksəriyyəti mərkəzin restoranlarından birində mütləq ya nahar, ya şam etməyi də yaddan çıxarmırlar. Hər şey nəzərə alınıb. Alış-verişini bitirib məkandan çıxmaq istəyənləri çıxışa qədər müxtəlif malların bolluğu müşayiət edir. Sanki birdən yadından nəsə çıxmış olar, məsələn, bu ucuz bıçaqdan da al, bu kiçik oyuncaqla uşağını sevindirə bilərsən, axşam çay içmək üçün bir-iki şirniyyat götür kimi mesajlar verilir, sənin beyninə müxtəlif yollarla ötürülür. Və sən almaq istəməsən də, alırsan. Özünü saxlaya bilmirsən, əmtəə asılılığı səni buna məcbur edir. Cibin boşalır, hesab kartın sıfırlanır.

Artıq tükətmək ehtirasının bizlərdə də ayaq açıb yeridiyini müşahidə etmək olar. Müxtəlif əmtəələrin istehlakı, müxtəlif xidmətlərdən gündəlik istifadə bu qəbildəndir. Hətta kənd xanımlarımız artıq gözəllik salonlarında soluqlarını almağa, alış-veriş mərkəzlərində nəfəs dərməyə adətkar olublar. Bunu onların həmin məkanlardan çəkdikləri selfiləri, müxtəlif markaların mağazaları qarşısında müxtəlif rakursdan çəkdirdikləri şəkilləri sosial şəbəkələrdə bir sənət nümunəsi kimi paylaşmaları daha yaxşı anladır.

Nə olursa olsun, almaq xatirinə alış-veriş etmək narkotik asılılığı qədər təhlükəlidir. Narkotik tapa bilməyən narkomanın həyacanından da artıq bir maniyaya tutulan almaq xəstəsi bu azarını öldürmək üçün müxtəlif yollara əl atır, onun bu həyacanı qonum-qonşuya da sirayət edir və az qala bütün cəmiyyəti bürüyərək kütləviləşir.

İstehlak cəmiyyəti israfçı cəmiyyətdir. İstifadə etdiyindən artıq almaq, müddəti keçincə atmaq bu cəmiyyətin xarakterik cizgiləridir.

Bu barədə yuxarıda bir neçə kəlmə ilə fikrimizi ifadə etsək də, israfçılıqla bağlı daha geniş danışmaq ehtiyacını mövzunun özü tələb edir. Beləliklə, istehlakın yüksək səviyyədə olmasına baxmayaraq, burada satılmayan malların çoxluğu heyrət doğurur. Tonlarla ərzaq istifadə müddəti bitdiyindən satışdan çıxarılır. Marketlərdən hər gün tonlarla meyvə-tərəvəzin zibilə atılması bunu əyani şəkildə təsdiqləyir. Bəzi marketlər itkilərini azaltmaq məqsədilə imkan daxilində bu məhsulların ömrünü uzatmağa, onlara ikinci həyat bəxş etməyə çalışırlar. Az-çox buna nail ola da bilirlər. Çürümək üzrə olan meyvə-tərəvəzdən şirələr çəkilir, salatlar hazırlanır və müştərilərə xüsusi qablarda yenidən təklif olunur. Xarab olmağa üz qoymuş ət məhsullarına ədviyyatlar vurulur, onlardan qiymə çəkilir, müxtəlif yeməklər bişirilərək müştərilərə təqdim olunur. Digər məhsulların da belə əməliyyatlardan sonra satışa çıxarıldığı məlumdur. Bundan sonra satılan satılır, satılmayan isə ömrünü başa vurub zibil qabına yola salınır. Bəzən satışı ağır, ləng gedən və istifadə müddətinə az qalan mallara endirim tətbiq olunur. Birini alana ikincisi pulsuz verilir və bu aksiya bütün Niderland miqyasında ən çox yayılmış satış formalarından biridir. Bununla marketçilər "ziyanın yarısından qayıtmaq da xeyirdir" prinsipi ilə çalışırlar.

Əhalinin aztəminatlı, kimsəsiz təbəqələrinə yardım edən qeyri-hökumət təşkilatlarının kömək üçün marketlərə müraciət etdiklərini müşahidə etmək mümkündür. Adətən, market sahibləri bu müraciətlərə müsbət cavab verir, həmin təşkilatları əlidolu yola salırlar. Amma, onlar bu xeyirxahlıqlarını vaxtı keçmiş mallarla edirlər. Müraciət edənlər də məmnun qalır, marketçilər də. Bu da hər iki tərəfin xeyriyyəçiliyi anlamına gəlir. Əslində, marketçilərin özləri də, ailələri də istifadə müddəti keçmiş mallardan genina-boluna yararlanırlar. Hətta elə dükan sahibləri var ki, mətbəxlərində yalnız istifadə müddəti keçmiş ərzaq, yarı iylənmiş, yarı çürümüş meyvə-tərəvəz işlədirlər. Onların soyuducusuna istifadəyə yararlı ərzaq nadir hallarda, belə demək mümkünsə, bayramdan bayrama girir. Bütün bunlara gözlərimlə şahidlik etdiyimi də deyim ki, söhbətimizin doğruluğuna kimsə şübhə etməsin.

Bir-iki cümlə ilə Avropa standartı, onun görünən və görünməyən tərəfləri barədə də danışım. Avropa standartı nədir? Hər şeydən öncə, Avropa standartı ölçüdür, meyardır. Avropada mal və xidmətlərin eyni ölçüyə malik olmasını anladan bir ölçü standartı, ölçü vahididir. Bu standarta bütün Avropa ölkələrində əməl olunur. Avropa standartı maddi kimi anlaşılsa da, onun mənəvi sahəni də öz içərisinə aldığını söyləmək olar. Ölçünü verən və ya standartı müəyyənləşdirən Avropa insanıdır. Mal və xidmətlərin bu standarta uyğun yaradılması üçün iş yerlərini açan, onu avadanlıqlarla təmin edən də Avropadır. Bu standartın qara işlərini görənlər isə gəlmələrdir. Nədən belədir? Gəlmələrin Avropa cəmiyyətinə inteqrasiyasını çətinləşdirən bir sıra səbəblər var. Avropa dillərini zəif bilmək, fərqli mədəniyyətin daşıyıcısı olmaq inteqrasiyanı çətinləşdirir, bəzənsə mümkünsüz edir. Bəzən üzə vurulmasa da, dini, irqi ayrı-seçkilik də buna mane olan səbəblərin önündə gəlir. Bütün bunlar gəlmələrin, sonradan Avropa ölkələrində vətəndaşlıq alanların alın yazısına çevrilir və onlar Avropa standartı deyilən ölçünün ən ağır və ən kirli işlərini görməyə məhkum olurlar.

Mən gec də olsa Avropadan insanın məqsədinə çatmasına dair nələrisə də əxz edə bildim. Problemləri çeşidləməyi, onları təxminən idmanda olduğu kimi yüngül, orta, ağır çəkilərə bölməyi mənimsədim. Bu bölgüdən sonra onların bir-birindən fərqli qaydada həll olunmasını, hərəsinin fərdi həll tələb etməsini anladım.

Burada zəruri bir haşiyə çıxmalı oluram.

Uşaqlıqdan təbiəti – bitkiləri, heyvanları müşahidə etməyi çox sevirəm. Yarpaqlardan bir albom-herbarim olduğunu da deyim. Fürsət düşdükcə təbiəti müşahidə marağım indi də işimə yarayır. Uşaqlıqda qarışqa yuvasının yaxınlığına müxtəlif ölçülü üç qənd parçası qoyduğumu, qısa müddətdən sonra hər qənd parçasının ölçüsünə müvafiq sayda qarışqa toplaşdığını heç unutmamışam. Qarışqaları saymadan da, adi gözlə müəyyən etmək olurdu ki, onların sayı qəndin ölçüsü ilə mütənasibdir. Kiçikdə az, böyükdə çox.

Problemlərin həllinə də qarışqalar kimi qərar vermək, enerjini onların böyüklüyünə-kiçikliyinə görə paylaşdırmaq lazım gəlir. Bunları etmədən heç bir problem çözümünə qovuşmayacaq, hər şey bir-birinə qarışacaq. Ara qarışıb, məzhəb itəcək demirikmi? Yəni insan ağız boşluğuna çeynəyib uda biləcəyindən artıq yemək ala bilmədiyi kimi, onun bütün problemləri eyni vaxtda həll etməsi də mümkünsüzdür. Problemlər öncə dəyərləndirilməli, onların ən təxirəsalınmazı irdələnib ayrılmalı və ilk olaraq onun çözümündən başlanılmalıdır. Ən kiçik problemin həlli insana pozitiv enerji verə bilər, onun daha böyük problemlərin həllinə köklənməsi üçün motivasiyaedici mahiyyət daşıya bilər. Bu qənaətlərim özünün son şəklini Niderlandda aldı. Bunu deməsəm bu ölkənin haqqına girmiş olaram.

Siyasi iqtisaddan təcrübə dərslərim burada yekunlaşır. Əslində bunlara təcrübə dərsləri yox, həyatın bildiklərimə etdiyi korrektələr, düzəlişlər kimi baxmaq daha doğru olardı. Yenə siz bilirsiniz. Necə istəsəniz o cür də qəbul edərsiniz.

*(davamı gələn sayda)*

**Afiq MUXTAROĞLU**
Niderland

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 APREL
2023-CÜ İL
№ 007 (178)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## TÜRKİYƏDƏ BAŞ VERMİŞ ZƏLZƏLƏ TÜRKİYƏ VƏ GÜRCÜSTAN ARASINDAKI TİCARƏTƏ NECƏ TƏSİR GÖSTƏRDİ?



Türkiyədə dağıdıcı zəlzələnin baş verməsindən sonra Türkiyə-Gürcüstan arasında ticarət dövriyyəsi fevralda yanvarla müqayisədə 5,5 % azalıb və 187,984 milyon dollar təşkil edib (yanvar ayında 199,034 dollar idi).

Bu dövr ərzində Türkiyədə yerli gürcü ixracı 7,7 % artıb. İxrac yanvarda 27,488 milyon dollar, fevralda isə 29,614 milyon dollar təşkil edib. İdxala gəldikdə isə, fevralda idxal əvvəlki ayla müqayisədə 7,8 % azalıb və 154,508 milyon dollar təşkil edib, yanvarda bu göstərici 167,655 milyon dollar olub.

Milli Statistika Xidmətinin məlumatına əsasən, fevralda böyük həcmlə Türkiyədən alıb-satdığımız məhsullar bunlardır:

**Top-5 ixrac edilmiş (yerli ixrac) məhsullar:**

- Köynəklər, isti xalatlar və maşın və ya əl ilə toxunmuş başqa trikotaj məhsulları – 6,600 milyon dollar;
- Dəmir ərintiləri – 5,905 milyon dollar;
- Digər məhsullar 3,899 milyon dollar;
- Kişi və ya oğlan üçün kostyumlar, dəstlər, trikotajlar, toxuma – 3,281 milyon dollar;
- Balıq və ya dəniz məməlilərinin yağları, piyləri və onların fraksiyaları – 1,203 milyon dollar.

**Top-5 idxal edilmiş məhsullar:**

- Üyüdülmüş müalicə vasitələri – 8, 570 milyon dollar;
- Yüngül avtomobillər – 5,958 milyon dollar;
- Qara dəmirdən metal konstruksiyalar və onların hissələri – 4,074 milyon dollar;
- Maşın və əllə toxunulmuş trikotaj parçalar və digər məhsullar – 3,512 milyon dollar;
- İzolə edilmiş məftillər və kabellər – 3,431 milyon dollar.

*Mənbə: bpn.ge*

## MÜƏLLİMLƏR ÜÇÜN 12 LAYİHƏ İDEYASI



Layihə konkret problemin həlli üçün planlaşdırılan və müəyyən vaxt ərzində həyata keçirilən işlərdir.

Layihənin məqsədi rəngarəng ola bilər, ancaq müəllim tərəfindən planlaşdırılmış layihə mütləq milli təhsil məqsədlərinə, milli tədris planına uyğun olmalıdır.

Layihənin məqsədini seçdikdən sonra ad düşünmək lazımdır. Yaxşı olar ki, başlıq qısa olsun və layihənin məzmununu ifadə etsin.

**Hansı mövzularda layihə planlaşdıra bilərik və layihə üzərində işləyən zaman nəyi nəzərə almalıyıq? Aşağıda müəllimlər üçün 12 layihə ideyası təqdim edirik:**

- Sağlam həyat tərzinə dəstək olmaq;
- Həmyaşıdlar arasında zorakılığın qarşısının alınması;
- Ətraf mühitin mühafizəsi;
- Şagirdlər tərəfindən insan hüquqlarının müdafiəsi;
- Şagirdlərdə yaradıcılıq bacarıqlarının inkişafına dəstək olmaq;
- Məktəb infrastrukturunun qaydaya salınması;
- Yeniyetmələr arasında bulinqə qarşı yönəlmiş təşəbbüslər;
- Valideynlərin məktəb həyatında iştirakını artırmaq;
- Şagirdlər üçün maarifləndirmənin inkişafı;
- Yuxarı sinif şagirdləri üçün peşə seçiminə dəstək olmaq;
- Erkən evliliyin qarşısının alınması;
- Məktəbdə dəqiq və təbiət elmlərinin gücləndirilməsi.

Bunlardan əlavə, başqa istiqamətlərdə də layihə planlaşdıra bilərsiniz. Əsas odur ki, layihənin mövzusu milli tədris planına uyğun olsun və məqsəd dəqiq olsun, layihə həyata keçirildikdən sonra problem qismən və ya tam olaraq həllini tapsın.

**Məlumat üçün qeyd edək ki, əgər layihəni ictimai məlumatlandırma məqsədi ilə planlaşdırırsınızsa mütləq layihədən əvvəl, ya layihə başa çatdıqdan sonra sorğu keçirməlisiniz.**

*Mənbə: etaloni.ge*

## GÜRCÜSTANDAN BUĞDA İXRACINA QOYULAN QADAĞA LƏĞV EDİLİB



Gürcüstanın Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyinin məlumatına əsasən, hökumət buğda ixracına qoyulan qadağanı ləğv edib.

Bildirilib ki, hökumətin qərarına əsasən, buğda ixracına qoyulan qadağa vaxtından əvvəl götürülüb və məhdudiyyət aprelin 5-dən etibarən qüvvəsini itirib.

Qeyd edək ki, Gürcüstan hökumətinin qərarına əsasən, 2022-ci il iyulun 4-dən 2023-cü il iyulun 4-dək Gürcüstanda buğda və arpa ixracı qadağan edilmişdi. Arpa qadağası tezliklə aradan qaldırılmışdı. Lakin buğdanın ixracına tətbiq olunan qadağa qüvvədə qalırdı.

Gürcüstanın Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı naziri Otar Şamuqia bildirib ki, ölkədə ərzaq təhlükəsizliyi baxımından artıq heç bir təhlükə yoxdur, ona görə də həmin qadağaya artıq ehtiyac qalmayıb.

## YANVAR-FEVRAL AYLARINDA ÖLKƏDƏ İQTİSADİ ARTIM 7,1 FAİZ OLUB



Milli Statistika Xidmətinin yaydığı məlumata əsasən, Gürcüstanda cari ilin yanvar-fevral aylarında 7,1 faiz iqtisadi artım qeydə alınıb. Cari ilin fevral ayında isə bu artım 5,8 faiz təşkil edib.

Məlumatda bildirilib ki, 2023-cü ilin fevral ayında iqtisadi artım ən çox tikinti, maliyyə, sığorta fəaliyyəti, ticarət, nəqliyyat və anbar təsərrüfatı kimi sektorlarda qeydə alınıb. Emal sənayesi, daşınmaz əmlak, peşə, elmi və texniki fəaliyyət sahələrində azalma tendensiyası müşahidə olunub.

## “BEELINE” MOBİL OPERATOR ŞİRKƏTİ ADINI DƏYİŞİB

Gürcüstanda “Beeline” mobil operator şirkəti adını dəyişib. Bu barədə şirkətin internet saytında məlumat paylaşılıb.

Məlumatda qeyd olunub ki, mobil operator artıq “Cellfie” adı ilə fəaliyyət göstərəcək. Mobil operatorun brend rəngləri, saytı və mobil aplikasiyası da artıq yenilənib və əvvəlki sayta çıxış məhdudlaşdırılıb.

“Brend dəyişsə də, bizim dəyərlərimiz eyni qalır”, - deyə şirkətin açıqlamasında bildirilib.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

**Redaktor:** Azər MUSAOĞLU
**Yayım direktoru:** Hacı BƏKİROĞLU
**Qrafik dizayn:** Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.